
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 139 (21.549)

29 iyul 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. "Naxçıvan Muxtar Respublikasının Arxiv İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 oktyabr tarixli 107-II FR nömrəli Fərmanı ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyul 2016-cı il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 28 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi haqqında

## ƏSASNAMƏ

### I. Ümumi müddəalar

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi (bundan sonra – İdarə) arxiv işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

3. İdarə ona həvalə olunmuş vəzifələri həm bilavasitə, həm də Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi və yerli dövlət arxivləri vasitəsilə həyata keçirir.

4. İdarənin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi, habelə qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

5. İdarə müstəqil balansa, üzərində Dövlət Gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamplara, blanklara və xəzinə hesablarına malikdir.

6. İdarə Naxçıvan şəhərində yerləşir.

### II. İdarənin fəaliyyət istiqamətləri

7. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. arxiv işi sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və onun həyata keçirilməsini təmin edir;

7.2. Naxçıvan Muxtar Respublikasının arxiv fonduna daxil olan, özündə xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, sosial, iqtisadi, siyasi, mədəni, bədii və başqa əhəmiyyət kəsb edən, o cümlədən Naxçıvan Muxtar Respublikasından kənarda yerləşən və Azərbaycana, o cümlədən muxtar respublikaya aid tarixi, mədəni irslə bağlı arxiv sənədlərinin qəbulunu, mühafizə və istifadəsini təmin edir;

7.3. bilavasitə İdarəyə tabe olan dövlət arxivlərinin işlərini əlaqələndirir və onların fəaliyyətini təmin edir;

7.4. arxiv işinin inkişafını tənzimləyir, dövlət arxivlərinə, idarə və qeyri-dövlət arxivlərinə metodiki kömək göstərir;

7.5. dövlət orqanlarında arxiv işinin təşkilini əlaqələndirir;

7.6. muxtar respublikada arxiv işinin vəziyyətini təhlil edir, sahə xüsusiyyətlərini nəzərə alaraq, onun inkişafının konsepsiya və strategiyasını hazırlayır;

7.7. Naxçıvan Muxtar Respublikasında arxiv fondunun mərkəzləşdirilmiş dövlət uçotunu aparır, onun tərkibi və məzmunu haqqında məlumatlar hazırlayır;

7.8. arxiv işi sahəsində xarici ölkə arxivlərinin müsbət iş təcrübəsini öyrənir və tətbiq edir;

7.9. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

### III. İdarənin əsas vəzifələri

8. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. Naxçıvan Muxtar Respublikası arxiv fondunun sənədlərinin dövlət arxivlərində komplektləşdirilməsi və mühafizəsi işini təşkil etmək, onların müəyyən olunmuş qaydalara uyğun dövlət arxivlərinə verilməsi işinə nəzarət etmək;

8.2. Naxçıvan Muxtar Respublikası arxiv fondunun sənədlərinin mərkəzləşdirilmiş dövlət uçotunu aparmaq, həmin sənədlərin mühafizəsi və istifadəsi üzərində nəzarəti təmin etmək;

8.3. müvafiq dövlət orqanları ilə birlikdə idarə arxivləri şəbəkəsinin təkmilləşdirilməsi və onların işinin təşkilinin yaxşılaşdırılması sahəsində tədbirlər həyata keçirmək;

8.4. arxiv fondunun sənədlərinin komplektləşdirilməsi, uçotu, mühafizəsi və istifadəsinə dair normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

8.5. müəyyən olunmuş qaydada dövlət arxivlərinin struktur və şəbəkəsinin təkmilləşdirilməsi işini təşkil etmək;

8.6. arxiv fonduna daxil olan muxtar respublika əhəmiyyətli sənədlərin dairəsini qanunvericiliyə uyğun olaraq müəyyənləşdirmək və onların dövlət arxivlərində cəmləşdirilməsi işini həyata keçirmək, aidiyyəti üzrə razılaşdırmaqla muxtar respublika daxilində sənədlərin bir arxivdən başqasına verilməsi məsələsinə baxmaq və həll etmək;

8.7. arxiv işində elektron avtomatik informasiya sisteminin tətbiqi və istifadəsi üzrə texniki təchizat siyasətini müəyyən etmək, informasiya şəbəkəsi və bazası yaradılması işini təşkil etmək, habelə Naxçıvan Muxtar Respublikası arxiv fondunun məzmunu və tərkibi haqqında məlumatların əldə olunması üçün ənənəvi arxiv məlumatları sistemi növlərindən istifadə edərək, bu məlumatların axtarılmasını təmin etmək;

8.8. dövlət arxivlərində mərkəzləşdirilmiş məlumat bankı sisteminin yaradılmasını təşkil etmək;

8.9. sənədlərin daimi mühafizə üçün dövlət arxivinə verilməsi məqsədi ilə onların elmi və əməli dəyərinin ekspertizasını təşkil etmək, saxlama müddətləri də göstərilməklə sənədlərin nümunəvi siyahılarını işləyib hazırlamaq və təsdiq etmək, idarələr tərəfindən saxlama müddətləri göstərilməklə işlənib hazırlanmış siyahılara baxmaq və razılaşdırmaq;

8.10. öz səlahiyyətləri çərçivəsində mülkiyyət formasından asılı olmayaraq idarə, təşkilat və müəssisələr tərəfindən arxiv işi sahəsində qanunvericiliyin tələblərindən irəli gələn tədbirlərin yerinə yetirilməsinə, arxiv fondlarının mühafizəsi və istifadəsinə nəzarət etmək;

8.11. Naxçıvan Muxtar Respublikası arxiv fondunun sənədlərini mülkiyyət formasından və mühafizə yerindən asılı olmayaraq dövlət qeydiyyatına götürmək;

8.12. qeyri-dövlət arxivlərinin sahiblərinə onların öz arxivlərini komplektləşdirməsi, mühafizəsi və istifadəsi işində kömək göstərmək;

8.13. qanunvericiliklə müəyyən edilmiş hallarda Naxçıvan Muxtar Respublikası arxiv fondunun dövlətə məxsus sənədlərindən və onlarda olan məlumatlardan istifadə qaydalarını işləyib hazırlamaq;

8.14. müəyyən edilmiş qaydada dövlət arxivləri tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən ödənişli iş və xidmətlərin növlərini müəyyən etmək;

8.15. Naxçıvan Muxtar Respublikası arxiv fonduna daxil olan sənədləri müəyyən olunmuş qaydada nəşr etmək. Arxiv fondu sənədlərinin tərkibi və məzmunu haqqında məlumat xarakterli vəsaitlərin nəşrini təşkil etmək, ictimaiyyətin retrospektiv sənədlər məlumatına ehtiyacını və sənədlərdən istifadə sahəsində səmərəlilik işinin öyrənilməsini əlaqələndirmək;

8.16. müəyyən olunmuş qaydada hüquqi və fiziki şəxslərə Naxçıvan Muxtar Respublikası arxiv fonduna daxil olan sənədlərin surətlərini muxtar respublika ərazisindən kənara çıxarmağa icazə vermək;

8.17. Naxçıvanın tarixi və mənəvi irsi ilə bağlı sənədlər və ya onların surətləri aşkar edildikdə, onların muxtar respublikaya qaytarılması və ya alınması barədə müvafiq dövlət orqanlarına təkliflər vermək;

8.18. dövlət arxivlərində sənədlərin mühafizəsi, istifadəsi, bərpası, surətlərinin çıxarılması və sair işlərə aid daha mükəmməl sistem və metodlardan istifadəni həyata keçirmək;

8.19. tabeliyində olan dövlət arxivlərinin əməkdaşlarının, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, təşkilat və müəssisələrin arxiv işçilərinin əlavə təhsili üzrə müvafiq tədbirlər görmək;

8.20. dövlət arxivlərində mühafizə olunan sənədlərdə vətəndaşların şəxsi və ailə həyatı haqqında informasiya daşıyıcıları olan arxiv sənədlərindən istifadə və müəlliflik hüquqlarının qorunması barədə qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət etmək;

8.21. qanunvericiliklə İdarəyə həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

### IV. İdarənin hüquqları

9. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, habelə idarə, təşkilat və müəssisələrdən onların arxivlərinin işi haqqında lazımi materiallar tələb etmək;

9.2. arxiv işi haqqında dövlət orqanlarının, idarə, təşkilat və müəssisələrin nümayəndələrinin məlumatlarını dinləmək;

9.3. müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində arxiv işinin təşkilinə dair mərkəzi və yerli icra hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələr üçün icrası məcburi olan normativ hüquqi aktlar qəbul etmək;

9.4. dövlət orqanları tərəfindən arxiv işinin təşkili haqqında hazırlanmış sahə standartları, siyahıları, təlimatları, qaydaları və tədris proqramlarını razılaşdırmaq;

9.5. müəyyən olunmuş qaydada tabeliyində olan idarə və təşkilatların fəaliyyətini tənzimləyən əsasnamələri təsdiq etmək;

9.6. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### V. İdarənin fəaliyyətinin təşkili

10. İdarəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir.

11. Rəis İdarəyə həvalə edilmiş vəzifələrin və funksiyaların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

12. Rəisin Naxçıvan Muxtar Respublikası Ali Məclisi ilə razılaşdırmaqla rəis tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan müavini vardır.

13. İdarənin strukturu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

14. İdarənin rəisi:

14.1. İdarənin işini təşkil edir və ona rəhbərlik edir;

14.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində İdarənin aparatının, yerli və digər qurumlarının ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

14.3. İdarənin tabeliyində olan qurumların əsasnamələrini təsdiq edir;

14.4. səlahiyyətləri çərçivəsində idarə aparatının və tabeliyində olan qurumların fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar və göstərişlər verir, onların icrasına nəzarət edir;

14.5. İdarənin səlahiyyətləri çərçivəsində dövlət sirrinə aid edilən məlumatların siyahısını müəyyən edir;

14.6. İdarənin işçilərini qanunvericiliyə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir;

14.7. müəyyən olunmuş qaydada İdarənin maliyyə vəsaitləri və əmlakı barəsində sərəncam verir;

14.8. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 28 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin

## STRUKTURU

1. Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin aparatı.
2. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi.
3. Rayon (şəhər) dövlət arxivləri.

# Cari ilin birinci yarısının yekunları müzakirə edilir, qarşıda duran vəzifələr müəyyənləşdirilir



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, hesabat dövründə muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə 1239 obyektdə əsaslı, 1177 obyektdə nəzəri, 423 obyektdə isə məqsədli yanğın-texniki müayinələr aparılıb, 55 min 525 şəxsi yaşayış evində, 328 binanın 7441 mənzilində yoxlamalar keçirilərək 151 ədəd qeyri-standart elektrik qızdırıcıları və nasaz elektrik sahəsi qadağan edilib, 216 ədəd şlanqla çəkilmiş qaz xəttinin və qeyri-standart qaz sobalarının istismarı dayandırılıb, 245 obyektin yanğından icbari sığortalanması təmin olunub. Təhsil, səhiyyə, mədəniyyət müəssisələrində və təhlükə potensiallı obyektlərdə maarifləndirici tədbirlər keçirilib, 21 min 45 ədəd tövsiyə xarakterli yaddaş kitabçaları paylanılıb.

Taxıl biçini dövründə kombaynların yanğına qarşı sazlığı yoxlanılıb, biçin aparılan sahələrdə gündəlik növbətçilik təşkil edilərək taxılın təhlükəsiz yığılması təmin olunub.

Ötən dövrdə 33 obyektin işçi layihə sənədləri ekspertizadan keçirilib, idarənin mühəndis-geoloji, sement və beton laboratoriyasında, ümumilikdə, 278 sayda müxtəlif növdə nümunələrin sınaqları aparılıb, 1 obyektə bina və qurğularda tikinti-quraşdırma işlərinin aparılmasına dair lisenziya verilib.

Hesabat dövründə 3 obyektdə mülki müdafiə sahəsində konfrans, yanğın-partlayış təhlükəli 3 müəssisədə taktiki-xüsusi təlim keçirilib, mülki müdafiə kursunda 12 tədris qrupunda 361 nəfər rəhbər, komandir-rəis heyətinin hazırlığı təmin edilib. 13 nazirlikdə, 42 təhsil, mədəniyyət, səhiyyə müəssisəsində, 13 təsərrüfat obyektində 2013 nəfərin iştirakı ilə maarifləndirici tədbir, 47 obyektdə isə 1433 nəfərin iştirakı ilə qrup məşğələsi keçirilib.

Hesabat dövründə şəhər və rayonlarda ictimai yaşayış binalarındakı zirzəmilərin yoxlanıldığını, 165 ədəd inzibati və yaşayış binasının zirzəmisinin pasportlaşdırıldığını bildirən Şamı Abdullayev deyib ki, Ordubad şəhərində 1 yaşayış binasının zirzəmisi əsaslı təmir edilərək rayonun mülki müdafiə səfərbərlik ehtiyatları həmin binanın zirzəmisinə yığılıb, Culfa şəhərində bu istiqamətdə işlər intensiv aparılır.

Vurğulanıb ki, hesabat dövründə 5 yeni təhlükə potensiallı obyekt, 174 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınıb, 6 texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanı və qeydiyyat şəhadətnaməsi verilib, 144 ədəd təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılıb, 15 ədəd liftin və 2 ədəd eskalatorun istismarına icazə verilib. 8 müəssisədə maşın və mexanizmlər, avadanlıq və qurğular texniki təhlükəsizlik üzrə ekspertizadan keçirilib.

Nazir qeyd edib ki, hesabat dövründə muxtar respublikada əməliyyat şəraiti nəzarətdə saxlanılıb, baş vermiş fövqəladə halların, digər xoşagəlməz hadisələrin qarşısı alınıb və nəticələri vaxtında aradan qaldırılıb.

Şamı Abdullayev görülən işlərə yanaşı, buraxılan nöqsanlardan, eləcə də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulan vəzifələrdən də danışıb.

Kollegiya iclasında Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımovun, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Ehtiram Məmmədovun, Mülki Müdafiə Alayının qərargah rəisi, polkovnik-leytenant Şahin Abdullayevin çıxışları olub.

Kollegiya iclasına fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayev yekun vurub.

* * *



***İyulun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin iclası keçirilib, iclasda 2016-cı ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.***

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov 2016-cı ilin birinci yarısında muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məruzə edib.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, əvvəlki illərdə olduğu kimi, cari ilin birinci yarısında da Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər həyata keçirilib.

Ramiz Süleymanov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlər barədə məlumat verib, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatları ilə zənginləşdirilməsindən bəhs edib, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi hüquqi maarifləndirmə sahəsində də bir sıra işlər görüb, ötən illərdə olduğu kimi, cari ilin müvafiq dövründə də hakimlərin peşə bacarıqlarının artırılması, hakimlər tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işləri aparılması sahəsində bir sıra tədbirlər həyata keçirib.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin cari ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilib.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vuraraq bildirib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində təşkil edərək ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

* * *

***İyul ayının 28-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında 2016-cı ilin birinci yarısında görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***



Yığıncaqda Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova 2016-cı ilin birinci yarısında Müvəkkil təsisatının fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Qeyd olunub ki, cari ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan və insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi, dövlət və yerli özünüidarəetmə orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurub.

Bildirilib ki, cari ilin birinci yarısında insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılıb. Belə ki, Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılıb, aid qurumlara sorğular göndərilib və şifahi qəbul zamanı ərizəçilərə çoxsaylı hüquqi məsləhətlər verilib. Vətəndaşlar tərəfindən müxtəlif formada daxil olmuş müraciətlərə, həmçinin elektron müraciətlərə qanunla müəyyən edilən müddətlərdə baxılıb və daxil olan bütün müraciətlər araşdırılıb.

Vurğulanıb ki, Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən biri insan hüquq və azadlıqlarının təbliği, hüquqi maarifləndirmə işinin təşkil edilməsidir. Cari ilin birinci yarısında Müvəkkil təsisatı tərəfindən, ümumilikdə, müxtəlif sosial qruplara ünvanlanmış 52 tədbir keçirilib. Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Ədliyyə, Səhiyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə aid 19 müəssisədə bəhs olunan dövrdə, ümumilikdə, cəmi 24 başçəkmə həyata keçirilib.

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsinin, qanunvericilik bazasının zənginləşdirilməsinin, Naxçıvan Muxtar Respublikasında insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkilin və təsisatın fəaliyyətinin işıqlandırılmasının, elektron müraciət səhifəsinin fəaliyyətinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayan Ülkər Bayramova qarşıda duran vəzifələrdən də danışıb. Bildirib ki, bundan sonra da insan hüquqlarının müdafiəsinin səmərəli həyata keçirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübə daha da inkişaf etdirilməli və mütəmadi olaraq təkmilləşdirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ülkər Bayramova yekun vurub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində də bu ilin ilk 6 ayında görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunan müşavirə keçirilib.***



Müşavirəni giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, kiçik miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə edib.

Məruzəçi bildirib ki, bu ilin ilk yarısında muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 158 əcnəbi aşkarlanıb. Bu dövr ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 4 min 537 müraciət daxil olub. Sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən miqrasiya bölmələri tərəfindən 1253 nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınıb. Hesabat dövründə xidmətə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə müvəqqəti yaşaması üçün icazənin verilməsi ilə bağlı, ümumilikdə, 232 müraciət edilib. Ölkəmizdə daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı isə xidmətə 5 müraciət daxil olub. Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar xidmətə 325 müraciət edilib. Bəhs edilən dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən dövlət büdcəsinə, ümumilikdə, 79 min 510 manat məbləğində pul vəsaiti köçürülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Müşavirəyə yekun vuran Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, kiçik miqrasiya xidməti müşaviri Şahin Nəbiyev işdə buraxılan nöqsanların qısa zamanda aradan qaldırılmasının vacibliyinə diqqəti çəkib.

* * *

Kəngərli Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov açaraq bildirib ki, muxtar respublikanın ümumi inkişafını ən gənc rayon olmasına baxmayaraq, bütün yaşayış məntəqələri abadlaşan Kəngərli rayonunun simasında daha qabarıq şəkildə görmək mümkündür. Əvvəlki dövrlərdə olduğu kimi, 2016-cı ilin birinci yarısında da rayonun inkişafında müsbət dinamika qorunub saxlanılıb və əldə olunan nəticələr bütün sahələri əhatə edib. İqtisadi inkişafın təmin edilməsində 2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı tədbirləri özündə əks etdirən üçüncü dövlət proqramının uğurlu icrası da mühüm rol oynayıb.

Bildirilib ki, aqrar sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini verib, 2016-cı ilin məhsulu üçün 6664 hektar sahədə əkin aparılıb. Strateji əhəmiyyətə malik taxılçılıq öz üstünlüyünü qoruyub saxlayıb. Cari ilin məhsulu üçün əkilmiş 3965 hektar sahədə taxıl biçini uğurla başa çatdırılıb. Biçilmiş sahələrdə orta məhsuldarlıq 29,2 sentner təşkil edib. Ümumilikdə, 13 milyon 338 min manata yaxın məhsul istehsal olunub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz çoxdur. Bundan əlavə, ekoloji tarazlığın qorunması məsələləri də diqqət mərkəzində saxlanılıb, 14,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 11 min 700 ağac və gül kolu əkilib.

Ötən 6 ayda həyata keçirilən tikinti-quruculuq və abadlıq tədbirlərindən də danışan icra başçısı bildirib ki, yaradılan müasir infrastruktur, istifadəyə verilən rahat yollar, sosial obyektlər yaşayış məntəqələrinin görkəmini dəyişməklə bərabər əhalinin rahatlığını təmin edib. Belə ki, rayon mərkəzində abadlıq işləri aparılıb, yol kənarlarında işıqlandırma sistemləri quraşdırılıb. Yurdçu kəndində kompleks quruculuq işləri aparılıb.

Hazırda Qıvraq qəsəbəsində 222 yerlik uşaq bağçası üçün binanın inşası davam etdirilməkdədir. Həmçinin Böyükdüz kəndində müharibə veteranı üçün tikilmiş yeni yaşayış mənzilinin yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulub.

Vurğulanıb ki, rayonun iqtisadi inkişafında özəl sektorun mühüm rolu vardır. Sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsidir ki, cari ilin ötən dövrü ərzində fəaliyyətin bu növü ilə məşğul olmaq istəyən daha 2 hüquqi və 84 fiziki şəxs qeydiyyata alınıb. Sahibkarlığın inkişafı yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlamasına, iş yerlərinin açılmasına, əhalinin maddi rifah halına təsir göstərir. Görülmüş işlər nəticəsində 2016-cı ilin ilk 6 ayı ərzində 108 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, 103 nəfər daimi işlə təmin edilib, 4 nəfər müxtəlif peşə təlim kurslarına göndərilib. İki dəfə təşkil olunan əmək yarmarkasında 50 işaxtaran vətəndaş daimi işlə təmin edilib.

Tədbirdə rayon Statistika İdarəsinin rəisi Tahir Məmmədovun və Maliyyə Şöbəsinin müdir əvəzi Əsgər Ağayevin çıxışları olub.

**Xəbərlər şöbəsi**

*Bu gün Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan qadınlar hərtərəfli qayğı ilə əhatə ediliblər. Onlar dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, sosial-iqtisadi, elmi və mədəni inkişafa öz töhfələrini verirlər. İstedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara da xüsusi diqqət göstərilir.*

## İstedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsi onlarda böyük həvəs, çalışmaq əzmi yaradır



Gənc qızların müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçı, keçəçi, dərzi, ağac üzərində oyma və sair peşə kursları təşkil olunur. 2012-ci ildə “Milli dəyərlər ili” ilə əlaqədar 71 istedadlı qadının 428, 2014-cü ildə “Muxtariyyət ili” ilə əlaqədar 157 istedadlı qadının 343 rəsm və əl işi sərgi-satışlara çıxarılıb. Ötən ilin oktyabr ayının 5-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Muxtar respublika qadınları müstəqillik illərində” mövzusunda təşkil olunan istedadlı qadınların əl işlərinin sərgisi də onlara göstərilən diqqət və qayğının parlaq təzahürü kimi dəyərləndirilib. Həmin tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxış edərək aidiyyəti orqanların qarşısında mühüm vəzifələr qoyaraq deyib: ***“Milli dəyərlərin yaşadılması sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdirilməlidir. Aid dövlət təşkilatları yaradılan şəraitdən istifadə edərək fəaliyyətlərini gücləndirməli, milli dəyərlərin əsas daşıyıcıları olan qadınlar bu işdə yaxından iştirak etməlidirlər. Hər bir kəndə, rayona xas olan milli dəyərlər muxtar respublikanın, muxtar respublikada toplanan milli dəyərlər isə ümumilikdə, Azərbaycan xalqının milli dəyərlər sisteminə daxildir. Ona görə də bu cür sərgilər Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində də təşkil olunmalı, istedadlı qadınların fəaliyyətinə dəstək verilməlidir”.***

Verilən tapşırığa uyğun olaraq, cari ildə muxtar respublikanın bütün rayon mərkəzlərində bu səpkidə sərgilərin təşkilinə başlanılıb. Bu tədbir Babək, Şərur, Culfa və Şahbuz rayonlarında yüksək səviyyədə başa çatıb. Dünən isə Ordubad şəhərindəki mədəniyyət evində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Ordubad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın açılışı olub.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubad rayonunda da qadınlar yüksək dövlət qayğısı ilə əhatə olunublar. Təsadüfi deyil ki, rayonda yaşayan qadınlardan 80 nəfəri yerli özünüidarəetmə orqanlarına üzv, onlardan 1 nəfəri bələdiyyə sədri seçilib. Bir qadın rayon İcra Hakimiyyəti başçısının müavini, 9 nəfər rayonda fəaliyyət göstərən təhsil müəssisəsinin rəhbəri vəzifəsinə təyin edilib. Qadınların dövlət qulluğunda, hüquq-mühafizə orqanlarında təmsilçiliyi genişlənib. Bu gün rayonda qadınlardan 23 nəfəri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müxtəlif mükafatlarına layiq görülüb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək deyib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr milli dəyərlərin də qorunub-yaşadılmasına imkan vermirdi. Bu sahə ilə məşğul olan qadınlara lazımi qayğı göstərilmirdi. Lakin bu gün ölkəmizin hərtərəfli inkişafı, mövcud sabitlik, dövlət qadın siyasətinin uğurla həyata keçirilməsi, ailə dəyərlərinə yüksək qiymət verilməsi qadınların ölkəmizin ictimai həyatında fəal iştirakına və istedadlarının üzə çıxarılmasına imkan verir. Qadınların bütün sahələrdə fəaliyyəti təmin olunur, min illər ərzində formalaşan milli dəyərlərimiz yaşadılır. Yaradılan şəraitin nəticəsində muxtar respublikada istedadlı qadınların sayı ildən-ilə artır. Onların əl işlərindən ibarət sərgilərin təşkili isə ənənə halını alıb. Bu gün Ordubad rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınlarımızın istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq, yüz illərdir, ailələrimizdə qorunub saxlanılan mənəvi irsimizi, zəngin dəyərə malik olan həyat tərzimizi yaşatmaqdır.

İstedadlı qadınlardan Mələykə Rəhimli deyib ki, muxtar respublikada yaradılan şəraitdən, bu sahəyə göstərilən dövlət qayğısından mən də yararlanmağa çalışıram. Hazırda Ordubad Rayon Uşaq Yaradıcılıq Mərkəzinin “Toxuculuq” dərnəyinin rəhbəri işləyirəm. Asudə vaxtlarımda əl işləri hazırlayır, onları müxtəlif sərgilərə çıxarıram. Belə sərgilərin təşkili biz qadınlara böyük stimul olur. Bütün qadınlar adından yaradılan bu şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

Sonra sərgi-satışa baxış olub. Sərgi-satışda rayon üzrə 45 istedadlı qadının 400 rəsm və əl işinin satışı təşkil edilib. Sulu və yağlı boya ilə işlənən tablolar, milli geyimlər, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb. Sərgidəki əsərlərdə xanımların hər birinin fərqli istedada, fərqli əl qabiliyyətinə, incə zövq və fantaziyaya malik olduqlarını duymaq çətin deyildi. Onların yaradıcılıq yolu müəyyən mənada birbirinə bənzəsə də, hər biri ayrı-ayrılıqda başqa bir gözəllik, zəriflik nümunəsidir.

Yaradıcılıq nümunələri sərgidə nümayiş etdirilən qadınlarımızdan biri Dünya Abbasovadır. Ordubad Rayon Uşaq Yaradıcılıq Mərkəzində “Dərzilik” dərnəyinə rəhbərlik edir. Dünya xanım toxuma və tikmədə çox bacarıqlıdır.

Əl işlərində milli dəyərlərimizi yaşatmağa daha çox üstünlük verən xanımlarımızdan biri də Nərmin İsgəndərovadır. O, hər nə toxuyursa, xalçımızın tarixi keçmişinin, milli adət-ənənələrimizin, qədim mərasimlərimizin təsvirinə üstünlük verir. Toxuduğu bir-birindən gözəl xalçalar, kilimlər muxtar respublikamızda keçirilən əksər bayram və şənliklərdə nümayiş etdirilir.

Sərgidə evdar qadınların da əsərləri özünə yer alıb. Onlardan biri də Samiyə Həsənovadır. O, müxtəlif toxuma işləri ilə belə bir sərgi-satışda ilk dəfədir, iştirak edir. Samiyə xanım belə bir tədbirin təşkil olunmasının onlarda böyük həvəs, çalışmaq əzmi yaratdığını deyir.

Sərgi-satışda sağlamlıq imkanları məhdud olan qadınlarımızın əl işlərinə də yer verilib. Onlardan biri Sura Əlizadədir. Onun əl işləri sərgidə böyük maraqla qarşılanır. Bu xanım da həmkarları kimi muxtar respublikamızda qadınlara göstərilən diqqət və qayğıdan çox razıdır.

Qeyd edək ki, növbəti sərgi-satış Kəngərli və Sədərək rayonlarında təşkil olunacaq.

✍ **Sara ƏZİMOVA**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin iyul ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 iyul tarixli 68 nömrəli qərarı ilə “Yaşıllıqlara qulluq, onların xəstəlik və zərərvericilərdən mühafizəsi Qaydası” təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 71 nömrəli qərarı ilə “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə” təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 72 nömrəli qərarı ilə “Baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların Vahid Siyahısı” təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 73 nömrəli qərarı ilə “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması ilə əlaqədar Nümunəvi Formalar” təsdiq edilmişdir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Naxçıvan Muxtar Respublikasından yüklərin dəmir yolu vasitəsilə daşınmasına dair yeni tariflər təsdiq olunmuşdur




***Muxtar respublikada digər sahələrlə yanaşı, dəmir yolu nəqliyyatının inkişafı da diqqət mərkəzində saxlanılır. Son illər bu sahədə yaradılan müasir infrastruktur xidmətin səviyyəsinin yüksəlməsinə, dəmir yolu nəqliyyatından istifadə edənlərin sayının və daşınan yüklərin həcminin artmasına səbəb olmuşdur. Yaradılan şərait dəmir yolu vasitəsilə xarici əlaqələrin inkişafına da imkan verir.***

Bu sahədə görülən işlərin nəticəsidir ki, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti ilə İran Dəmir Yolları arasında 2016-cı il mart ayının 15-də, aprelin 28-də və iyulun 15-də imzalanmış ikitərəfli protokollara, eləcə də qarşılıqlı razılaşmaya əsasən, Naxçıvan Muxtar Respublikasından yüklərin dəmir yolu vasitəsilə daşınmasına dair yeni tariflər təsdiq olunmuşdur. Bununla da, İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması, eləcə də təhlükəsiz və səmərəli nəqliyyat marşrutları təmin edilmişdir. Qeyd olunan marşrutlar üzrə yüklərin dəmir yolu ilə daşınması operativliyin təmin olunmasına və xərclərin digər nəqliyyat vasitələri ilə müqayisədə azalmasına səbəb olacaqdır.

Yeni tariflərə əsasən, Naxçıvan şəhərindən Bəndər-Abbas limanına olan 2311 kilometr yol üçün 1 vaqon yükün (55 ton) daşınması 2162 İsveçrə frankı (3458 manat), Saraks şəhərinə olan 1979 kilometr yol üçün 1 vaqon yükün (55 ton) daşınması 1732 İsveçrə frankı (2770 manat) təşkil edir. Daşımalar yüklərin təyinatına uyğun vaqonlarda həyata keçiriləcəkdir.

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən təşkil edilən növbəti əmək yarmarkası iyulun 28-də Şahbuz rayonunda keçirilib. Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Şahbuz Rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov açaraq əmək yarmarkalarının əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, əmək yarmarkalarının keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşlar arasında qarşılıqlı ünsiyyətin təşkil edilməsindən, işəgötürənlərin qısa vaxt ərzində müasir biliklərə yiyələnmiş ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaqdan və onların işlə təmin olunmalarına köməklik göstərilməsindən ibarətdir.

Şahbuz Rayon İcra Hakimiyyətinin nümayəndəsi Cəlal Paşayev qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan münasib işlə təmin olunub. Vurğulanıb ki, rayon Məşğulluq Mərkəzi tərəfindən hazırlıq məqsədilə görülən işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 18 təşkilatdan 103 boş iş yerinin çıxarıldığı yarmarkada 14 nəfərə işə göndəriş verilib.

Növbəti yarmarka bu gün Culfa rayonunda keçiriləcək.

**Xəbərlər şöbəsi**

## Ali təhsil ocağı birinci yarımili uğurla başa vurub

***Naxçıvan Dövlət Universitetində 2016-cı ilin birinci yarısında görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib. İclası universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə açaraq məruzə edib. Rektor muxtar respublikada ali təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən işlərdən danışıb.***

Qeyd edilib ki, 2016-cı ilin birinci yarısı Naxçıvan Dövlət Universiteti üçün uğurlu və əlamətdar hadisələrlə yaddaqalan olub. Universitetə hədiyyə olunan müasir planşet Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin akt zalında quraşdırılıb. Hərtərəfli dövlət qayğısı sayəsində yaradılan maddi-texniki baza universitetdə tədrisdə və təhsildə daha yüksək keyfiyyətə nail olmağa əsas verir. Ötən dövr ərzində “Elektron universitet” layihəsinin və distant təhsilin tətbiqi, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. Universitetin beynəlxalq əlaqələri inkişaf etdirilib, 80-dən çox tanınmış dünya universiteti ilə əməkdaşlıq edən ali məktəb “Tempus” proqramı ilə qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilən 5 layihədə uğurla təmsil olunub.

Vurğulanıb ki, universitetdə tələbə mobilliyi də diqqət mərkəzindədir. Tələbələr Türkiyə Respublikasındakı universitetlər ilə dünya universitetləri arasındakı qarşılıqlı müəllim və tələbə mübadiləsi proqramı olan “Mövlana” proqramına əsasən, Türkiyə universitetlərinə, həmçinin Cənubi Koreyanın Kimçonq Universitetinə, Rusiya Federasiyasının və Ukraynanın müxtəlif ali məktəblərinə bir il və ya bir semestr müddətində ali təhsil almağa göndərilib. “Erasmus+” layihəsi çərçivəsində universitetin Sosial idarəetmə və hüquq, İqtisad fakültələrinin 6 tələbəsi ali təhsillərini Rumıniyanın Babeş-Bolyai Universitetində uğurla davam etdirib.

Rektor deyib ki, bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iyulun 22-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasındakı çıxışında da qeyd etdiyi kimi, ölkəmizin gələcəyinin təminatçıları olan istedadlı, bilikli, sağlam və vətənpərvər nəslin yetişdirilməsinə hesablanıb. Layiqli vətəndaş və mütəxəssis, mükəmməl kadr hazırlığı baxımından çoxsaylı universitet kollektivinin, təcrübəli professor-müəllim heyətinin üzərinə mühüm vəzifələr düşür.

İclasda məruzə ətrafında çıxışlar dinlənilib, görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub. Naxçıvan Dövlət Universitetinin 2016-cı ilin birinci yarımilində qazandığı uğurlar slaydlar vasitəsilə təqdim edilib.

**Mehriban SULTAN**

# Naxçıvanın gəzməli-görməli yerləri



Haçadağ

***Yəqin ki, bir çoxlarınız başqa diyarlardan doğma yurda qayıdanda hələ buludlar arasında olan təyyarə pəncərəsindən boylanıb doğulub boya-başa çatdığınız diyarı sonsuz bir səbirsizliklə görmək, qarşınızda açılan bənzərsiz təbiət mənzərələrini seyr etmək istəmisiniz. Başıqarlı zirvələri, dərələrdən şırıl-şırıl axan suları, al-əlvan çiçəklərlə örtülmüş yamyaşıl yamacları, qoynunda minbir ağaca, cürbəcür canlılara yer vermiş meşələri görməyi, yer üzündə kiçik bir parça olan doğma yurdun torpağına tezliklə ayaq basmağı, onun təmiz havasını ciyərlərinizə çəkməyi arzulamış, bu arzunuzun yerinə yetməsini bütün varlığınızla istəmisiniz. Təyyarə qanadları bu məmləkətin üzərinə lap yaxından kölgə salanda, addımlarınızı astaca torpağa doğru atanda yaddaşınızda havadan gördüyünüz mənzərələr həkk olunub, sonralar gördüyünüz gözəlliklər gözləriniz önündən kino lenti kimi keçib, onlar hafizənizdə şirin bir xatirə kimi iz salıb, bu ecazkar gözəllikləri lap yaxından görməyə tələsmisiniz.***

Tanrı bizə böyük xoşbəxtlik bəxş edib. Bu dünyanın elə bir nöqtəsində, elə bir yerində bir torpaq parçası hədiyyə edib ki, onun hər qarışında bir gözəllik, möhtəşəmlik var. Üzən adası, diş göynədən bulaqları, göz yaşı kimi dumduru suyu olan gölləri, sıx meşələri, yamyaşıl çəmənləri, minbir rəngli çiçəkləri ilə görənləri heyrətə gətirən, ana təbiətin bizə ən böyük ərməğanı yurdun gülüstanı, dillər dastanı olan Batabatdan, deyin, harada var? Bir çoxlarınız dünyanın müxtəlif yerlərinin mənzərələrini televiziya vasitəsilə izləmisiniz, hətta bəzilərinizə bu mənzərələri canlı görmək nəsib olub. Gəlin etiraf edək ki, gördüyümüz bütün bu mənzərələrdə bir sabitlik, monotonluq, dəyişməzlik var. Ya göz gördükcə uzanan meşələr var, ya sakit, lal axan çaylar, ya da sonsuz kimi görünən dənizlər. Ancaq yurdumun təbiəti bir başqadır. Hər şey dəyişkən, canlı, dinamikdir, hər addımda yeni təbiət mənzərələri ilə qarşılaşmaq mümkündür. Səhər tezdən dağları da görə bilərik, bir az sonra yamaclara sərilmiş meşələri də, kükrəyən dağ çaylarını da, yaşıl çəmənləri də. Bir az sonra isə çılpaq sıldırım qayalıqlar, sis-dumanın yuxuya getdiyi dərələr, quru tikanların yuvarlandığı çöllər, düzənlikdə sakit axan sular, sonra təkrarıbənzəri heç yerdə olmayan dağlar, buz bulaqlar, göllər, şəlalələr, buludlardan nəm alan zirvələr, sapsarı günəbaxan tarlaları, qızılı zəmilər, çölün ortasında tənha qaraağaclar bizi qarşılaya bilər.

Bəs torpaqlara həyat verən coşqun sulu Xan Araz, Arpaçay necə? Onları heç yaxından dinləmisinizmi? Sahillərində qara qanadlı leyləklərin, qağayıların, qarabatdaqların, qanadları minbir rəngə çalan yaşılbaş sonaların yuva saldığı, bəzən sakit, bəzən də kükrəyərək qara daşları qabağına qatdığı Tanrının sudan yaratdığı bu möhtəşəm abidələrə saatlarla sakitcə tamaşa etmisinizmi, daşların dibini özlərinə rahat yuva seçmiş balıqların, bir-dən-birə minbir çətinliklə çayyuxarı baş alıb getməsinin sirrini tapmağa çalışmısınızmı?



Göy-göl



Batabat



Pəzməri şəlaləsi

Yadınıza salın, axırıncı dəfə Haçadağa nə zaman yolunuz düşüb? Nə vaxt zirvələrdən qopub düşən daşların üzəri ilə addımlamısınız, dilini bilənə mülayim davranan, naşı olana sərt üzünü göstərən bu daşlardan birini götürüb üzərindəki alın yazısına bənzər qırışlara, naxışlara tamaşa etmisiniz? Onları nə zaman öyrənməyə çalışmısınız, Günəşin qızdırdığı bu daşlarda yaradılışın sirrini axtarmısınızmı?

Dağ çayları və şəlalələr bu torpağın əbədi həyat nəğməsidi. Qaplançayın gurlayan səsi, qaynar həyat nəğməsi olan Pəzməri şəlaləsindən küləyin qopardığı zərrələr, görəsən, hansı vədə üzünüzü oxşayıb? Yamaclarındakı ağzı bıçaq təki iti daşlar arasından yüzlərlə dərman bitkisinin boylandığı bu məkanı görməyi, orada bircə saat da olsa, vaxt keçirməyi ildə bir dəfə çıxdığınız məzuniyyət zamanında xəyalınızdan keçirmisinizmi?

Uca dağların qovuşuğunda, əriyən qarların yaratdığı çeşmələrdən axan sulardan doğulub ərsəyə gələn, həyat tapan, sahillərini təbiət adlı rəssamın öz fırçasıyla isti, al-əlvan rənglərə boyadığı, dörd fəsli bir araya gətirməyə qadir olan Göy-gölün sahilində oturub Günəşin ətrafı nura boyamasına rəğmən, dağlardan əsən yellərdən heç üşüdüyünüz olubmu? Küləyin qırçın ləpələrə döndərdiyi suları əlinizlə nə zaman oxşamısınız?

...Doğulub boya-başa çatdığımız, uzaqlarda olanda onun üçün, necə deyərlər, burnumuzun ucunun göynədiyi müqəddəs torpağı, Vətən adlandırdığımız yurdu çox sevmək, ona bütün qəlbimizlə bağlanmaq üçün bizə candan əziz olan məmləkətimizin hər qarışını, daşını-qayasını, hər gülünü-çiçəyini, bu güllərin şeh damlayan ləçəyini yaxşı tanımalıyıq. Sizi inandırım ki, içi mən qarışıq belə gözəl yerlərə gedəndə, biş-düşdən, yemək-içməkdən vaxt ayırıb, səssiz bir guşəyə çəkilib təbiətin səsinə qulaq asmağa, bu gözəlliklərin fərqinə varmağa vaxt tapa bilmirik. Geri qayıtdıqda isə yadımızda qalan yamyaşıl çəmənlikdə bizim və ya bizdən öncəkilərin "yadigar" qoyduğu qapqara ocaq yeri və kabab tüstülü, dumanlı, bişmiş ət qoxulu, qarmaqarışıq səs-küylərdən ibarət xatirələr olur. Görəsən, niyə biz həmişə ana təbiətlə görüşə ancaq kabab bişirmək, ağaclara adımızın baş hərfini bıçaqla "nəqş etmək", dağ zanbaqlarının kökünü qazıb dibçəyə əkmək üçün evə gətirmək, bir sözlə, mütləq şəkildə orada bir "iz" qoymaq üçün getməliyik? Sizi inandırım ki, yalnız bircə dəfə bu adətimizə xilaf çıxsaq, onda hər şey başqa cür olacaq, çantamıza bir parça yavanlıq və su qoyub pay-piyada cığırların yolunu tutsaq, yorulub nəfəsimiz tükənəndə yüksək bir qayada oturub keçdiyimiz yola təkrar nəzər salsaq, getdiyimiz yerlərin hər daşını, hər qayasını tanımağa, Yaradanın bizə bəxş etdiyi gözəllikləri, sözün həqiqi mənasında, dərk etməyə vaxt tapa, bu gözəlliklərə bütün varlığımızla bağlana biləcəyik. Məncə, sınamağa dəyər. Bəs sizcə?

Səbuhi HÜSEYNOV

Əli XUDİYEV

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 574